**“Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il 14 dekabr tarixli 16/2023 nömrəli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasına dair**
**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

# Q Ə R A R I

**“ 24 ” dekabr 2025-ci il** **№ 23** **Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsini və “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 79-1 və 80-ci maddələrini, “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydası”nın 2.1-ci bəndini rəhbər tutaraq

**QƏRARA ALDI:**

**1.** “Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il 14 dekabr tarixli 16/2023 nömrəli Qərarının (Ali Məhkəmə Plenumunun 2025-ci il 24 dekabr tarixli 21 nömrəli Qərarı ilə edilmiş dəyişikliklərlə) tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə Plan (bundan sonra - Plan) təsdiq edilsin.

**2.** Monitorinq respublikanın bütün kommersiya məhkəmələrini və apellyasiya instansiyası məhkəmələrinin kommersiya kollegiyalarını əhatə etməklə, 2026-cı il 1 aprel tarixindən 2027-ci il 1 aprel tarixədək olan dövr ərzində - 1 (bir) il müddətində həyata keçirilsin.

**3.** Monitorinq məhkəmələrdən anket (cavablandırılması nəzərdə tutulan suallar toplusuna dair sorğu) məlumatlarının toplanılması və “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemin imkanlarından istifadə edilməsi üsulları vasitəsilə keçirilsin.

**4.** Ali Məhkəmənin Aparatı Planın icrası ilə bağlı olaraq Ali Məhkəmənin Kommersiya kollegiyası ilə razılaşdırılmaqla “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydası”nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin.

**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri** **İnam Kərimov**